AZƏRBAYCAN RESPUBLİKASI
DÖVLƏT MİQRASİYA XİDMƏTİ

# ““Miqrasiya sahəsində olan əsas konsepsiya və tendensiyalar”

(3 günlük təlim)

**Hazırkı təlim “Azərbaycanda Miqrasiya üzrə Regional Təlim Mərkəzinin yaradılmasına dəstək” layihəsi çərçivəsində, Beynəlxalq Miqrasiya Təşkilatının İnkişaf Fondu (BİF) tərəfindən maliyyələşdirilir və BMqT və DMX tərəfindən birgə həyata keçirilir.**

**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT MİQRASİYA XİDMƏTİ**

IOM UN MIGRATION | IOM DEVELOPMENT FUND

## Təlim təsviri

| Uyğunluq: | Davametmə | Tarixlər: |
| --- | --- | --- |
| Miqrasiya sahəsində çalışan peşəkarlar. | 3 gün (Zoom vasitəsilə onlayn) | 25-27 May, 2021-ci il |

Təlimdə 10 ölkədən (Azərbaycan, Belarus, Moldova Respublikaları Gürcüstan, İran İslam Respublikası, Qazaxıstan, Qırğızıstan, Özbəkistan Respublikaları, Türkiyə Cümhuriyyəti, Türkmənistan) 25 İştirakçı iştirak etmişdir.

Qeyd olunan 3 günlük təlim zamanı iştirakçılar miqrasiya və onunla bağlı olan siyasət və əsas strategiyaları müzakirə edərək öz geniş biliklərini artırıblar. Həmçinin beynəlxalq miqrasiya tendensiya və konsepsiya mövzularına aid olan bilikləri paylaşıblar. Təlimdə bu məsələlərin müzakirəsi zamanı bu sahədə ən son yeniliklər diqqətə çatdırılıb, mövzu üzrə aparılmış təqiqat işlərinə diqqət yetirilib, ekspert və iştirakçıların praktiki təcrübələri nümayiş etdirilib.

Hər bir ölkə/ regonun özünə məxsus təcrübə və miqrasiya tarixi olduğundan, onların hər birində iştirakçıların xüsusi gözlənti və öyrənmə məqsədləri var və buna görə də təlimçilər öz təcrübələrini və tədris metodlarını bir araya gətirərək hər kəs üçün uyğun ola biləcək tədris materialarını təqdim ediblər.

Təlimin sonunda qiymətləndirmə aparılıb və yaxın zamanda iştirakçılara *sertifikat* təqdim olunacaq.

Təlim nəticəsi olaraq iştirakçılar miqrasiya ilə bağlı əsas sahələr haqda geniş bilik əldə edib. Bir sıra mühazirə, mütaliə, müzakirə və aralarnda keçirilən viktorinalar vasitəsilə iştirakçılar miqrasiyanın müxtəlif sahə və formaları üzrə biliklərini artıraraq, onları gələcək gündəlik iş fəaliyyətlərində tətbiq etmək imkanını qazandılar.

AZƏRBAYCAN RESPUBLİKASI
DÖVLƏT MİQRASİYA XİDMƏTİ

IOM UN MIGRATION | IOM DEVELOPMENT FUND

## Təlim nəticəsində iştirakçılar aşağıdakı bilikləri tətbiq etmək imkanını qazanacaq:

- Müxtəlif miqrant növləri və miqrasiya təcrübələri haqqında biliklərə sahib olmaq, miqrasiyanın müxtəlif hüquqi kanalların miqrantlar üçün əsas insan hüquqlarının qorunmasına necə təsir etdiyini təhlil etmək;
- Miqrasiya idarəçiliyin daha geniş məlumatlı və daha vahid olmasını təmin etmək üçün siyasət quruluşunu təhlil edib, onu yenidən quraraq mükəmməlləşdirmək;
- Miqrasiyanın əsas termin və anlayışlarını müəyyən etmək;
- Miqrasiya ilə bağlı əsas nümunələri müzakirə etmək;
- Beynəlxalq miqrasiya səbəblərini həm nəzəriyyə, həm də empirik sübutlardan istifadə edərək izah etmək;
- Beynəlxalq miqrasiyanın tranzit və təyinat ölkələrinə müsbət və mənfi təsirini qiymətləndirmək;
- Miqrant qəbulunu, qeyri-qanuni miqrasiyaya nəzarəti, qaçqın və digər məcburi miqrantların müdafiəsini tənzimləyən əsas siyasət çərçivələrin güclü və zəif tərəflərini izah etmək.

## Məzmun

Təlim aşağıda göstərilənləri əhatə etdi:

- *Açılış mərasimi (25 May, 2021-ci il)*

Modul 1: Miqrasiyaya giriş: Əsas şərt və anlayışlar *(25 May, 2021-ci il)*

Modul 2: Beynəlxalq Miqrasiya Trendləri *(26 May, 2021-ci il)*

Modul 3: Miqrasiyanın İdarəetmə Siyasəti və Strategiyaları *(29 May, 2021-ci il)*

- *Bağlanış mərasimi (29 May, 2021-ci il)*

## Modul 1: Miqrasiyaya giriş: Əsas şərt və anlayışlar

| | **Təsvir** |
|---|---|
| **Modul məzmununun qısa təsviri** | Təlim miqrasiya sahəsində olan termin və anlayışlar üçün bələdçi kimi xidmət etməyə çalışır. Təlimin məqsədi əsas miqrasiya anlayışlarını və əlaqəli terminologiyanı nəzərdən keçirərək və terminologiyanın müqayisəli təhlilini aparmaqdır. |
| **Modul müddəti** | 3.5 saat |
| **Məzmun** | ✓ “Miqrasiya”anlayışın əsas tərifləri<br>✓ Miqrasiyanın növ və səbəbləri<br>✓ Miqrasiyanın əsas səbəbləri hansılardır?<br>✓ Miqrasiyanın əhəmiyyəti nədir?<br>✓ Miqrasiyanın üstünlüyü və zərəri nədir?<br>✓ Miqrasiya ilə bağlı əsas terminlər (immiqrasiya/emiqrasiya, qaçqın, sığınacaq, əmək miqrasiyası, məcburi köçkünlər, miqrasiya saxlanması və s.)<br>✓ Miqrasiya lüğətinin tədqiqatı<br>✓ Terminologiya üzrə miqrasiyanın tərifləri və müzakirələri<br>✓ Miqrasiya mərhələləri<br>✓ Qlobal miqrasiyanın əsas anlayışları və s.<br><br>✓ Migration definitions and debates in terminology |

## Modul 2: Beynəlxalq Miqrasiya Trendləri

| | Təsvir |
|---|---|
| **Modul məzmununun qısa təsviri** | Təlim zamanı iştirakçılara dünya, eləcə də bir sıra müəyyən regionlar üzrə miqrasiya sahəsində indiki və gələcək tendensiyaların təhlili təqdim olunacaq. Burada insan axını, immiqrasiyanın müxtəlif kanalları və müxtəlif milliyyətlər üzrə miqrant barədə ətraflı təsvirlər əhatə olunacaq. |
| **Modul müddəti** | 5.0 saat |
| **Məzmun** | ✓ Beynəlxalq miqrasiyanın ümumi tendensiyaları hansılardır?<br>✓ XXI əsrin əvvəllərində beynəlxalq miqrasiya tendensiyaları<br>✓ Beynəlxalq miqrasiyanın öyrənilməsində müasir tendensiyalar<br>✓ Miqrasiyanın gələcək tendensiyaları<br>✓ Miqrasiya statistikası və qlobal miqrasiya haqqında etibarlı məlumatlar<br>✓ Təhlükəsiz, nizamlı və daimi miqrasiya üzrə qlobal sazişin müzakirəsi və s. |

## Modul 3: Miqrasiyanın İdarəetmə Siyasəti və Strategiyaları

| | **Təsvir** |
|---|---|
| **Modul məzmununun qısa təsviri** | Təlim zamanı iştirakçılar miqrasiya ilə bağlı əsas konsepsiya, siyasət və strategiyaları daha dərindən araşdıracaq və miqrasiyanın bəşər tarixi boyunca necə daimi bir fenomen olduğunu öyrənəcəklər. |
| **Modul müddəti** | 5.5 saat (+1 saat fasilə üçün) |
| **Məzmun** | ✓ Miqrasiya siyasəti nədir?<br>✓ Miqrasiya siyasətlərin növləri.<br>✓ Beynəlxalq miqrasiya siyasətləri.<br>✓ Miqrasiya strategiyası nədir?<br>✓ Miqrasiya strategiyalarının nümunələri.<br>✓ Daimi miqrasiya yolları.<br>✓ Qeyri-qanuni miqrasiya qarşısının alınması: üsul və praktiki tədbirlər.<br>✓ Davamlı inkişaf gündəliyin çərçivəsində 2030-cu illərdə miqrasiya mövzusu üzrə müzakirələr və s. |